ABB
Azərbaycan Beynəlxalq Bankı

# Dayanıqlı Maliyyə üzrə Çərçivə Sənədi

Dayanıqlı maliyyə üzrə yanaşmamız və metodologiyamız

Bu sənədin məzmunu ABB Bank ASC-yə məxsusdur və əvvəlcədən yazılı icazə olmadan, tam və ya qismən olaraq surətinin çıxarılması, istifadə edilməsi, saxlanılması və ya hər hansı bir formada (elektron, mexaniki, kserokopiya ilə və ya başqa bir şəkildə) ABB Bank ASC-dən kənarda yayılması qadağandır.

# Dayanıqlı Maliyyə üzrə Çərçivə Sənədi

Bu Çərçivə Sənədi, tərəfdaşlarımıza dayanıqlı maliyyə vizyonumuzu, öhdəliklərimizi, məqsədlərimizi, meyarlarımızı və hədəflərimizi, eləcə də dayanıqlı maliyyəyə yanaşmamızı başa düşməkdə kömək etmək məqsədilə təqdim olunur.

## Mündəricat:


### 1. Giriş

1. Əsas anlayışlar
2. Çərçivə sənədinin məqsədi
3. Ümumi prinsiplər
4. Çərçivə sənədinin əhatə dairəsi
5. Lahiyələrin müəyyənləşdirilməsi

### 2. Layihə seçimi üçün uyğunluq meyarları

1. Qərar ağacı diaqramı
2. I Parametr: Vəsaitlərin istifadəsi
3. II Parametr: Şirkətin profili
4. III Parametr: Maliyyə Məhsulunun Özü (Dayanıqlılıqla Bağlı Məhsul)

### 3. Dayanıqlı lahiyələrin təsnifatı

1. Yaşıl Etiket Prinsipləri
2. Sosial Etiket Prinsipləri

### 4. Dayanıqlı maliyyələşmənin qiymətləndirilməsi prosesi

1. Ekoloji & Sosial aspektlərin qiymətləndirilməsi (ESDD)

### 5. Dayanıqlı kredit mexanizmi

1. Dayanıqlılıq hədəfinin və idarəetmə metodunun sənədləşdirilməsi
2. Dayanıqlı kreditin verilməsi
   1. Daxili resurslar hesabına maliyyələşdirilmiş dayanıqlı kreditlər üçün şərtlər və qaydalar
   2. Xarici resurslar hesabına maliyyələşdirilmiş dayanıqlı kreditlər & qrantlar üçün şərtlər və qaydalar

### 6. Dayanıqlı istiqraz mexanizmi

1. Dayanıqlı istiqraz çərçivəsinin qurulması
2. Kənar rəyin alınması
3. Dayanıqlı istiqrazın buraxılması
4. Yerli sənədləşmə

### 7. Lahiyələrin monitorinqi

1. Müştəri tərəfindən Dövri Hesabatlılıq
2. Yerində baxışlar və yoxlamalar
3. 3-cü tərəf hesabatı
4. Monitorinq prosesi

### 8. Hesabatlılıq

1. Paylaşdırılma üzrə Hesabatlılıq
2. Təsir etmə üzrə Hesabatlılıq

# I Hissə. Giriş

Azərbaycanın ən böyük bankı olan ABB Bank ASC (bundan sonra "Bank"), Cənubi Qafqaz bölgəsində aktivlər, müştəri bazası və beynəlxalq fəaliyyət portfeli baxımından qabaqcıl banklardan biridir. Bankın Azərbaycanın bölgələrində 74 filialı və 13 şöbəsi fəaliyyət göstərir. Bank, Azərbaycan daxilində sosial-iqtisadi inkişafı təşviq edərək ölkənin rifahını artırmağa və əhəmiyyətli təsir əldə etməyə çalışır.

## 1.1 Əsas anlayışlar

### 1.1.1 Təriflər

Aşağıdakı təriflər beynəlxalq standartların ümumi anlayışına əsaslanır:

- **Dayanıqlı maliyyə** - ESİ meyarlarını maliyyə xidmətlərinə inteqrasiya etməklə dayanıqlı inkişaf hədəflərinə, o cümlədən iqlim dəyişmələrinin mitiqasiyasına və adaptasiyasına yönələn maliyyə;
- **Ekoloji amillər** - İqlim dəyişikliyinin azaldılması ilə yanaşı, biomüxtəlifliyin qorunması, çirklənmənin qarşısının alınması və dövri iqtisadiyyat kimi ətraf mühitin daha geniş aspektlərini əhatə edir;
- **Sosial amillər** - Sosial ədalət, inkluzivlik, əmək münasibətləri, insan kapitalına sərmayə qoyuluşu, eləcə də insan hüquqları məsələlərini əhatə edir;
- **İdarəetmə amilləri** – İdarəetmə strukturları, korporativ münasibətləri, əmək haqqını və ümumilikdə idarəetmə prinsip və prosedurlarını əhatə edir;
- **Dayanıqlı Kredit** - Ekoloji və sosial hədəflərə bağlı olan güzəştli şərtlərlə verilən və borcalanı dayanıqlılıq performansını artırmağa təşviq edən kredit növüdür;
- **Dayanıqlı İstiqraz** – Əldə olunan vəsaitlərin yalnız dayanıqlı layihələrin maliyyələşdirilməsi və ya yenidən maliyyələşdirilməsi məqsədilə istifadə edildiyi istiqrazdır;
- **Yaşıl Etiket Prinsipləri**- Əsasən ətraf mühitin dayanıqlılığı və təsirinə fokuslanır və maliyyə məhsulunun "yaşıl" olaraq təsnif etmək üçün tələb olunan meyarları və standartlar toplusudur (III Hissənin 3.1 bölməsində izah olunacaq);
- **Sosial Etiketli Prinsipləri** – Münasib qiymətli mənzil və ya sosial infrastrukturun tikilməsi kimi sosial məqsədləri olan lahiyələrin dəstəklənməsinə fokuslanır və maliyyə məhsulunu "sosial" olaraq təsnif etmək üçün tələb olunan meyarları və standartlar toplusudur (III Hissənin 3.2 bölməsində izah olunacaq);
- **Dayanıqlılıq Etiketi** – Yaşıl və Sosial etiketi özündə ehtiva edən etiket olub, Bir maliyyə məhsulunun spesifik dayanıqlıq meyarlarına uyğun olduğunu göstərir;
- **Dayanıqlılıqla Bağlı Məhsul** - Şərtləri borcalanın müəyyən edilmiş Əsas Performans Göstəriciləri hədəflərinə nail olmasına bağlı olan maliyyə məhsuludur (II Hissənin 2.4 bölməsində izah olunacaq və Cədvəl 1. və Cədvəl 2.də "Təklif olunan Əsas Performans Göstəriciləri" başlığı altında göstəriləcək);
- **Ekoloji & Sosial aspektlərin qiymətləndirilməsi** (Environmental & Social Due Diligence) - Qərar qəbul etmə prosesində əhəmiyyətli rol oynayan, lahiyələrin ekoloji və sosial aspektlərini ölçmək üçün istifadə olunan bir alətdir (IV Hissədə izah olunacaq);
- **Taksonomiya** – bir sahəyə aid məlumatları, tələbləri və göstərişləri strukturlaşdırmaq, təşkil etmək və kateqoriyalara ayırmaq üçün istifadə olunan rəsmi bir sənəddir.

### 1.1.2 Qısaltmalar

**ABB** – Azərbaycan Beynəlxalq Bankı
**AMB** – Azərbaycan Respublikasının Mərkəzi Bankı
**BFB** – Bakı Fond Birjası
**BKMA** – Beynəlxalq Kapital Marketi Assosiasiyası (International Capital Market Association)
**DBİ** – Dayanıqlılıqla Bağlı İstiqraz (Sustainability-Linked Bond)
**DBİP** - Dayanıqlılıqla Bağlı İstiqraz Prinsipləri (Sustainability-Linked Bond Principles)
**DBK** – Dayanıqlılıqla bağlı Kredit (Sustainability-Linked Loan)
**DBKP** - Dayanıqlılıqla bağlı Kredit Prinsipləri (Sustainability-Linked Loan Principles)
**DİG** – Dayanıqlı İstiqraz Göstərişləri (Sustainability Bond Guidelines)
**DİM** - Dayanıqlı İnkişaf Məqsədləri (Sustainable Development Goals)
**DMK** – Dayanıqlı Maliyyə Komissiyası (Sustainable Finance Commission)
**DPH** - Dayanıqlı Performans Hədəfləri (Sustainability Performance Targets)
**ESDD** – Ekoloji & Sosial aspektlərin qiymətləndirilməsi (Environmental & Social Due Diligence)
**ESİ** – Ekoloji, Sosial, İdarəetmə
**EXS** – Erkən Xəbərdarlıq Sistemi
**ƏFG** – Əsas Fəaliyyət Göstəriciləri (Key Performance Indicators)
**YİP** – Yaşıl İstiqraz Prinsipləri (Green Bond Principles)
**YKP** - Yaşıl Kredit Prinsipləri (Green Loan Principles)
**KOB** – Kiçik və Orta Biznes
**MM** – Müştəri Meneceri (Relationship Manager)
**SİP** – Sosial İstiqraz Prinsipləri (Social Bond Principles)
**SKP** – Sosial Kredit Prinsipləri (Social Loan Principles)
**KMA** – Kredit Market Assosiasiyası (Loan Market Association)

## 1.2 Çərçivənin məqsədi

Dayanıqlı Maliyyə Çərçivəsi, dayanıqlı maliyyə üzrə yanaşma və metodologiyamızı müəyyən edir, eni zamanda, bu məsələ üzrə məqsədlərimizə uyğun strategiyaların müəyyənləşdirilməsi və hesabatlılığın şəffaflığının təmin edilməsi istiqamətindəki öhdəliklərimizi əks etdirir. Bu çərçivə aşağıdakı məqsədlərə xidmət edir:

- Dayanıqlı maliyyə öhdəliyimizlə uyğun layihələri təsnif etmək, izləmək və açıqlamaq üçün bir çərçivənin qurulması;
- Dayanıqlı maliyyənin həm müştərilərimiz, həm də müəssisəmiz üçün inkişaf yolu olduğunu nəzərə alaraq, potensialları müəyyənləşdirmək və inkişafı stimullaşdırmaq üçün bir mexanizmin formalaşdırılması.

## 1.3 Ümumi prinsiplər

Bu çərçivəni hazırlayarkən ABB "dayanıqlı maliyyə" anlayışını yaşıl, sosial, ətraf-mühit və dayanıqlılıqla bağlı maliyyə təşəbbüslərini əhatə edən bir anlayış kimi nəzərə alır. Gələcəkdə əlavə maliyyə alətləri təqdim oluna bilər. Sentyabr 2024-cü il etibarı ilə dayanıqlı maliyyələşdirmə üçün təklif olunan alətlər Dayanıqlı Kredit və Dayanıqlı İstiqrazdır.

Çərçivənin formalaşdırılması zamanı beynəlxalq standartlarına, prinsiplərə və digər qabaqcıl bankların təcrübələrinə (məsələn, Barclays, Royal Bank of Canada, Deutsche Bank) əsaslanılmışdır. Bu standartlar müvafiq qaydaları əhatə edir:

### 1.4 Çərçivə sənədinin miqyası

Bu Çərçivə sənədi xüsusilə Bank tərəfindən təmin olunan maliyyələşməni tənzimləyir və Bankın müştərilərinin saxladığı investisiyalara aid edilmir. MM-lər bütün kredit müraciətlərini qiymətləndirərkən müştərilərin və ya layihələrin dayanıqlılıq meyarlarına uyğunluğunu müəyyən etməkdən məsuldurlar. Uyğun hesab olunan namizədlərə və eləcə də dayanıqlı maliyyələşmə üçün müraciət edən digər müştərilərə bu Çərçivə tətbiq ediləcəkdir.

Çərçivə iki kateqoriyanı əhatə edir:

- Dayanıqlı Etiketlə Maliyyələşmə - 3 Etiketi əhatə edir:
  - Yaşıl Etiket- Ətraf mühit və iqlimin qorunmasına və inkişafına həsr olunmuşdur. (III Hissənin 3.1 bölməsində izah olunacaq);
  - Sosial Etiket - Müsbət sosial nəticələr təmin etməyə yönəlib. (III Hissənin 3.2 bölməsində izah olunacaq);
  - Dayanıqlılıq Etiketi - Yaşıl və sosial etiketlərin vəhdətidir.

- Dayanıqlılıqla Bağlı maliyyələşmə (II Hissənin 2.4 bölməsində izah olunacaq)

### 1.5 Lahiyələrin müəyyənləşdirilməsi

Dayanıqlı maliyyələşdirmə prosesi potensial layihələrin müəyyən edilməsi ilə başlayır.
Bu, aşağıdakı kanallar vasitəsilə baş verə bilər:

- Fiziki kanallar:
  - Korporativ MM
  - SME MM
  - Filiallar, şöbələr

- Rəqəmsal kanallar:
  - Bankın rəsmi veb saytı
  - Digər rəqəmsal kanallar, məsələn, ABB Business Mobile və İnternet Bankçılığı (gələcəkdə təkmilləşdiriləcək)

# II Hissə. Layihə seçimi üçün kriteriyalar

Strukturlu Qərar ağacı diaqramı (bax: II Hissənin 2.1 bölməsi) dayanıqlılığın təsnifatının müəyyən edilməsi prosesini başa düşməyə kömək edir. Qərar ağacında göstərildiyi kimi, **ilkin parametr** vəsaitlərin istifadəsinin konkret iqtisadi fəaliyyətə və ya layihəyə ayrıldığını müəyyən etməkdir. Növbəti addımda həmin lahiyənin **Yaşıl və ya Sosial** etiketə malik olub olmadığının yoxlanılır (III Hissədə izah olunur). Bu şərt yerinə yetirilmədikdə, təhlil **ikinci parametrə** keçir: Şirkətin profili. Bu parametrdə şirkətin gəlirlərinin əksəriyyətinin dayanıqlı fəaliyyətdən əldə edilib-edilməməsi yoxlanılır. Əgər bu meyarlar da təmin edilmirsə, o zaman qiymətləndirmə **üçüncü parametrə** keçir: layihənin dayanıqlılıqla əlaqəli olub-olmadığını qiymətləndirmək.

Namizəd yuxarıda göstərilən meyarlardan hər hansı birinə cavab verdikdə, **Ekoloji & Sosial aspektlərin** qiymətləndirilməsi (ESDD) həyata keçiriləcək (bax: IV Hissə). ESDD prosesindən toplanan bal 30-dan aşağı olarsa, dayanıqlı maliyyə üçün müraciət rədd edilir. Əgər bal **30-dan yuxarı olarsa,** dayanıqlılıq prinsiplərinə uyğunluq **Dayanıqlı Maliyyə Komissiyası** tərəfindən müəyyən ediləcək.

Əgər bir layihəyə imtina verilərsə, qərar səbəbləri ilə birlikdə müvafiq qaydada müştəriyə bildiriləcəkdir.

### 2.1 Qərar ağacı diaqramı

*Şəkil 1*



## 2.2 Vəsaitlərin istifadəsi (1-ci parametr)

*Vəsaitlərin istifadəsi xüsusi iqtisadi fəaliyyət ilə əlaqələndirilirmi?*
*Əldə olunan vəsaitin istifadəsi Yaşıl/Sosial Etiket Prinsipləri ilə üst-üstə düşür?*

Bu o deməkdir ki, maliyyələşmə dayanıqlı maliyyə kateqoriyasına aşağıdakı hallarda uyğun gəlir:

- Vasitələrin istifadəsi Cədvəl 1 və Cədvəl 2-də əks olunmuş "Uyğun fəaliyyət" bölməsində göstərilən yaşıl və sosial etiketlərlə üst-üstə düşür.
- Bu maliyyə aləti, I Hissənin 1.3 bölməsində göstərilən beynəlxalq təçkilatların prinsiplərinə əsasən yaşıl və ya sosial istiqraz və ya kredit kimi təsnif edilir.

## 2.3 Şirkətin profili (2-ci parametr)[1]

Əgər vəsaitlərin istifadə məqsədi bu fəaliyyətləri dəstəkləmək üçün təyin olunmadığı halda ikinci parametra müraciət edirik.
*Şirkətin gəlirlərinin əksəriyyətini dayanıqlı fəaliyyətdən əldə edir?*
Bu, o deməkdir ki, əgər şirkət gəlirlərinin əhəmiyyətli hissəsini yaşıl təşəbbüsləri, karbon azaldılması səylərini və sosial təsiri təşviq edən fəaliyyətlərdən əldə edirsə, məhsul dayanıqlı maliyyə kimi təsnif edilə bilər. Bu fəaliyyətlər, Cədvəl 1 və Cədvəl 2-nin "Uyğun fəaliyyət" bölməsində göstərilmişdir.

*Qeyd 1. ESG reytinqi və Dayanıqlılıq hesabatı da indikator olaraq nəzərə alına bilər.*

## 2.4 Maliyyə məhsulunun özü - Dayanıqlılıqla Bağlı Məhsul (3-cü parametr)

*Dayanıqlılıqla Bağlı Məhsuldur?*
Dayanıqlılıqla Bağlı məhsullar, şərtlərin borcalanın **Əsas Fəaliyyət Göstəriciləri** (ƏFG) ilə ölçülən və **Dayanıqlı Performans Hədəfləri** (DPH) ilə qiymətləndirilən xüsusi dayanıqlılıq hədəflərinə nail olması ilə əlaqəli olduğu maliyyə müqavilələrini əhatə edir.
Maliyyə məhsulunun xüsusiyyətləri BKMA-nın Dayanıqlılıqla Bağlı İstiqraz Prinsipləri (DBİP) və ya KMA-nın Dayanıqlılıqla Bağlı Kredit Prinsipləri (DBKP) kimi müəyyən edilmiş təlimatlara uyğun olarsa, məhsul dayanıqlı maliyyə kimi təsnifat üçün uyğun hesab olunur. Bu təlimatlar aşağıdakıları əhatə edir:

- **ƏFG-lərin əhəmiyyətliliyi**
- **DPH-ların iddialılığı**
- **Hədəf nailiyyətinin təsiri**
- **Performansın izlənməsi**
- **Performansın yoxlanılması**

Layihənin dayanıqlılıqla bağlılığının qiymətləndirilməsi üçün tövsiyə olunan ƏFG-lər "Tövsiyə olunan ƏFG-lər" bölməsində, Cədvəl 1 və Cədvəl 2-də göstərilmişdir.

# III Hissə. Sustainable project classification

Banklar dayanıqlı və yaşıl kredit məhsullarının təqdim edilməsi üçün müştərilərindən təsdiqləyici sənədlər tələb edə bilər. Təsdiqedici sənədlər kimi:
a) müstəqil 3-cü tərəflərdən əldə edilmiş yaşıl sertifikat;
b) bankın sifarişi ilə müstəqil ixtisaslaşmış təşkilat və ya fərdi ekspert tərəfindən verilmiş rəy;
c) müştəri tərəfindən verilmiş öz təsdiqi (self-attestation) sənədi çıxış edə bilər.
Mürəkkəb layihələr üzrə a və ya b rəyi qəbul edilir. Qeyri-mürəkkəb və əvvəlcədən müəyyən edilmiş standart hallar üzrə c qəbul edilə bilər.
Bu Hissə, **1-ci parametr** üçün uyğun fəaliyyətlərin müəyyən edilməsi meyarlarını və **3-cü parametri** üçün layihələrin dayanıqlılıqla əlaqəsini qiymətləndirmək üçün tövsiyə olunan ƏFG-ləri təsvir etməyə yönəlmişdir.

## 3.1 Yaşıl Etiket Prinsipləri

Yaşıl Etiket Prinsipləri, ekoloji təşəbbüsləri təşviq edən iqtisadi fəaliyyətləri vurğulayır. Bir layihə aşağıdakılardan ən azı birini təmin edən və ya dəstəkləyən iqtisadi fəaliyyətləri əhatə edirsə, o zaman Yaşıl Etiket üçün uyğun hesab olunur:

- İstixana qazlarının emissiyalarının birbaşa və ya dolayı yolla azaldılması
- Çirklənmənin qarşısının alınması və ya enerji/resurs istehlakının effektivliyinin artırılmas
- Dövri iqtisadiyyata keçid
- Təbii resursların və sağlam ekosistemlərin qorunması, bərpası və təşviqi
- Tullantıların qarşısının alınması və materialların təkrar istifadəsi və təkrar emalı təşviqi
- İqlim dəyişikliyi səbəbindən baş verən və ya artan kəskin və xroniki fiziki risklərə uyğunlaşma tədbirləri
- Dəniz və quruda (canlı) resursların, o cümlədən suyun, kritik və yüksək karbon ehtiyatı ekosistemlərinin qorunması

Yaşıl Etiket layihələri aşağıdakı kateqoriyalarla məhdudlaşmamaqla, aşağıdakıları əhatə edir:

*Cədvəl 1*

| | Yaşıl Etiketli Lahiyələr (Xüsusi iqtisadi fəaliyyət) | | Dayanıqlılıqla Bağlı |
|---|---|---|---|
| **Lahiyənin Kateqoriyası** | **Uyğun fəaliyyət** | **Təklif olunan sənədlər** | **Təklif olunan ƏFG-lər** |
| **Bərpaolunan Enerji** | **Yenilənə bilən enerji istehsalı**<br>Biogaz müəssisələri, Geotermal quyular, Günəş panelləri və ya günəş termal kollektorlar, İstilik sistemləri üçün yerli mənbələrdən əldə olunan pellet və ya taxta çipləri (tam taxta yanacaq kimi uyğun deyil), İstilik nasosları, Digər yenilənə bilən enerji mənbələri | - Gözlənilən illik enerji istehsalı (kWh/il)<br>- Metan sızıntılarının izlənməsi və fövqəladə hallar planı (Əgər varsa)<br>- PEFC/FSC sertifikatı (Xammal istifadəsi üçün) | - Tikilmiş və ya bərpa edilmiş yenilənə bilən enerji müəssisələrinin tutumu (MW)<br>- İllik yenilənə bilən enerji istehsalı (MWh/GWh - elektrik) və GJ/TJ (digər enerji)<br>- İllik İstixana qazlarının emissiyalarının azaldılması/qarşısının alınması (ton CO2 ekvivalentində, mümkün olduqda) |
| | **Enerji istehsalı müəssisələri ilə bağlı enerji saxlama obyektləri**<br>Elektrik saxlama (məs. batareyalar), İstilik saxlama, Yaşıl hidrogen şəklində saxlama | - Gözlənilən saxlama tutumu (kWh)<br>- Sızıntıların izlənməsi və fövqəladə hallar planı (Əgər varsa)<br>- Gözlənilən tutum artımı (kWh) | |
| | **Enerji infrastrukturu**<br>Şəbəkə tutumu, Rayon istilik/soyutma sistemləri (Qurğu həm əsas, həm də pik yüklər üçün yenilənə bilən enerji mənbələrini istifadə etməlidir) | - Gözlənilən enerji mənbələri arasında bölüşdürülmə (%) | |
| | **Başqa** | - Layihə təsviri | |
| **Təmiz Nəqliyyat** | **Velosiped və piyada yolu**<br>Velosipedlər, Piyada və ya velosiped üçün şəraitin yaradılması | - İnvestisiya qərarı və ya digər sənədləşmə<br>- Mövcud olduqda: Kilometr və ya kvadrat metr sayı | - Tikilmiş təmiz nəqliyyat infrastrukturu: uzunluğu və növü<br>- İllik İstixana qazlarının emissiyalasının azaldılması/qarşısının alınması (ton CO2 ekvivalentində) |
| | **Quru nəqliyyatı**<br>Dəmir yolu əsaslı ictimai nəqliyyat üçün avadanlıq, Yük maşınları | - Nəqliyyat vasitəsinin növü və sayı<br>- Təxminən illik məsafə (km)<br>- Bioqaz istifadə olunarsa: Fosil yanacaqların istifadə edilməyəcəyini təsdiqləyən müqavilə<br>- İnvestisiya qərarı və ya digər sənədləşmə<br>- Nəqliyyat vasitəsinin növü və yanacaq tərkibi | |
| | **Dəniz nəqliyyatı**<br>Dəniz nəqliyyatı | - Gəmilərinin növü<br>- Əvvəlki fosil yanacaqla işləyən gəminin təxminən yanacaq istehlakı (litrlər/il) və ya illik sahil enerjisi təminatı (kWh/il)<br>- Bioqaz istifadə olunarsa: Fosil yanacaqların istifadə edilməyəcəyini təsdiqləyən müqavilə | |
| | **Ağır maşınlar** | - Ağır maşınların/avadanlıqların növü<br>- Təxminən işləmə saatlarının sayı (saat/il)<br>- Yeni maşınların enerji istehlakı (kWh/saat)<br>- Köhnə maşınların yanacaq istehlakı (litrlər/saat)<br>- Biogaz istifadə olunarsa: Fosil yanacaqların istifadə edilməyəcəyini təsdiqləyən müqavilə | |
| | **İnfrastruktur**<br>Nəqliyyat vasitələri üçün şarj məntəqələri, Yaşıl hidrogen və biogaz doldurma stansiyaları, İctimai nəqliyyat üçün işləmə avadanlığı, Relslər və digər infrastruktur, Küçə kənarı enerji bağlantıları və şarj məntəqələri, Digər liman infrastrukturu, Sıfır emissiyalı ağır maşınlar üçün infrastruktur | - İnvestisiya qərarı və ya digər sənədləşmə<br>- Doldurma stansiyasının təsviri (enerji növü)<br>- Nəqliyyat vasitəsinin növü və yanacaq tərkibi<br>- Biogaz istifadə olunarsa: Fosil yanacaqların istifadə edilməyəcəyini təsdiqləyən müqavilə<br>- Mövcud olduqda: Yeni infrastrukturun kilometr sayı (km)<br>- İllik təxmini sahil enerjisi təminatı (kWh/il) | |
| | **Başqa** | - Layihə təsviri<br>- Investisiya qərarı və ya digər sənədləşmə | |

| | | | |
|---|---|---|---|
| 13 CLIMATE ACTION<br>**Dayanıqlı su və çirkab suyu idarəetməsi** | **Tullantı sularından alınan ödənişlərlə maliyyələşdirilən səth axını idarəetməsi fəaliyyəti**<br>Çirkab suların və səth axınının ayrılması | - Layihə təsviri | - Tikilmiş və ya yenidən qurulmuş su təmizləmə qurğularının sayı<br>- Su paylanması itkilərinin azaldılması<br>- Su təkrar istifadəsi miqdarı və ya faizi<br>- Qənaət edilmiş su miqdarı |
| | **Kiçik miqyaslı enerji istehsalı tədbirləri**<br>İstilik bərpası, enerji bərpası | - Gözlənilən illik enerji istehsalı (kWh/il) | |
| | **İqlim-dostu təsisatlar (Climate-friendly)**<br>Mövcud su təsisatlarında tədbirlər (Tədbir enerji effektivliyində 20% artım təmin edir, İqlim dəyişikliklərinə uyğunlaşma ehtiyacına cavab verir, Kimyəvi maddələrin istifadəsini və ya sızmalarını azaldır, İqlim-dostu materiallardan istifadə edir); Mövcud məişət sularında tədbirlər (yuxarıdakı ilə eynidir); Fosforun bərpası; Biogaz istehsalı üçün şlam (sludge) müalicə təsisatları; Yeni su təsisatları (Təsisat əvvəlki həll yolundan və ya ehtimal olunan digər həll yolundan 20% daha enerji effektivdir, İqlim dəyişikliklərinə uyğunlaşma ehtiyacına cavab verir, Kimyəvi maddələrin istifadəsini azaldır və ya yerli mühitə təsirini minimuma endirir, İqlim-dostu materiallardan istifadə edir); Yeni məişət suyu təsisatları (yuxarıdakı ilə eynidir) | - Enerji qənaəti - kWh/il, (hesablamanın metodunu daxil etməklə)<br>- Layihə təsviri, sərmayə qərarı, rəqabətli tender sənədləri<br>- Seçilmiş materialların təsviri<br>- Seçilmiş texnologiyanın təsviri<br>- Gözlənilən fosforun bərpa olunma faizi<br>- Əgər varsa: risk və həssaslıq qiymətləndirilməsi<br>- İl ərzində gözlənilən şlam (sludge) miqdarı (quru maddə/il)<br>- Layihənin iqlim və ekoloji baxışdan ambisiyalarını izah edən və biogazın və üzvi qalıqların istifadəsi planını əks etdirən layihə təsviri<br>- Metan qaçaqlarının monitorinqi və fövqəladə hallarda tədbirlər planı | |
| | **İqlim-dostu tikinti layihələri (Climate-friendly)**<br>Sıfır emissiyaya səbəb olan qazıntı işləri/tikinti sahələri; Qazıntısız layihələr | - Rəqabətli tender sənədləri və ya saytın sıfır emissiya olduğunu göstərən digər sənədlər<br>- Layihə müddətində qarşısı alınmış $CO_2$ emissiyaları (hesablama əsası daxil olmaqla)<br>- Layihə təsviri | |
| | **Başqa** | - Layihə təsviri | |
| 9 INDUSTRY, INNOVATION AND INFRASTRUCTURE<br>**Yaşıl bina, infrastruktur** | **Mövcud Bina Fondu Üçün Tədbirlər**<br>F rdi enerji effektivliyi t dbirl ri; sasl ı t mir layih l ri; Mövcud bina fondu il yeni genişl ndirilmiş binaların b rpası; Mövcud binaların iqlim d yişiklikl rin uyğunlaşdırılması; Binalarda b rpa olunan enerji Binalarda enerji saxlama; Emissiyasız tikinti v tikinti sah si | - Layihə təsviri<br>- Əgər varsa: Gözlənilən enerji qənaəti (kWh/il)<br>- Təmir öncəsi və sonrası hər kvadrat metr isidilmiş sahə üçün təxmin edilən enerji tələbi və ya istehlakı (kWh/m²/il)<br>- Təmir öncəsi və sonrası standart iqlim şəraitində çatdırılan enerji (kWh/m²/il)<br>- Təxmin edilən enerji tələbi və ya təxmin edilən enerji istehsalı (kWh/il)<br>- Seçilmiş materialların təsviri, (hər hansı bir sertifikat daxil olmaqla); Əgər varsa: "Təkrar istifadə xəritəsi";<br>- Əldə edilmiş və ya qəbul edilmiş sertifikat<br>- Layihənin hansı iqlim dəyişiklikləri ilə əlaqəli çətinliyi həll etməyi və bunun necə həyata keçiriləcəyini göstərən sənəd<br>- Gözlənilən illik enerji istehsalı (kWh/il)<br>- Gözlənilən saxlama tutumu (kWh)<br>- Tender sənədləri və ya əldə edilmiş nəticələri təsdiq edən digər sənədlər<br>- Layihə müddətində qarşısı alınmış istixana qazı emissiyaları (hesablamalar daxil olmaqla)<br>- Əgər varsa: NS3770 standartına uyğun əldə edilmiş nəticə<br>- Biogaz istifadə olunarsa: Fosil yanacaqların istifadə edilməyəcəyini təsdiqləyən müqavilə | - Əmlak üzrə sertifikatlaşdırma səviyyəsi<br>- Enerji effektivliyi artımı (MWh və ya %) (əsas göstərici ilə müqayisədə)<br>- Təxmin edilən qarşısı alınmış istixana qazı emissiyaları ($tCO_2eq$)<br>- İllik enerji qənaəti (MWh/il) |
| | **Yeni Binalar**<br>Yeni aşağı enerji istehlaklı binalar; Yeni iqlim-dostu (climate-friendly) materiallarla tikilmiş binalar; Yeni binalarda yerli istehsal olunan enerji; Yeni binalarda aşağı istixana qazı emissiyaları; Emissiyasız tikinti v tikinti sah si; Ekoloji sertifikatlı binalar; Resurs istehlakı az olan üzgüçülük hovuzları v ya buz döş m l ri | - Binanın ümumi enerji tələbinin (kWh/m²) TEK17 qaydaları ilə müqayisəsi<br>- Əgər varsa: nZEB kvalifikasiyası sənədi<br>- Seçilmiş materialların təsviri (hər hansı bir sertifikat daxil olmaqla)<br>- Hesablanmış çatdırılan enerji tələbi və təxmin edilən enerji istehsalı (kWh/il)<br>- NS3720 standartına uyğun istixana qazı analizi (referans bina ilə müqayisədə)<br>- Tender sənədləri və ya əldə edilmiş nəticələri təsdiq edən digər sənədlər<br>- Biogaz istifadə olunarsa: Fosil yanacaqların istifadə edilməyəcəyini təsdiqləyən müqavilə<br>- Əldə edilmiş və ya qəbul edilmiş sertifikat<br>- Layihə təsviri və ya resurs istifadəsinin aşağı olması və ya digər müsbət iqlim və/və ya ekoloji faktorları təsdiq edən digər sənədlər | |

| | | | |
|---|---|---|---|
| **Yaşıl bina, infrastruktur** | **Tullantıların Qarşısının Alınması və Təkrar İstifadə**<br>Tullantıları azaltmaq v   ya daha çox t  krar istifad  ni asanlaşdıran t  dbirl  r | - Gözlənilən təsir (keyfiyyətcə və ya kəmiyyətcə)<br>- Əgər uyğundursa: İnvestisiyadan əvvəl təkrar istifadə olunmuş miqdar (ton) və investisiyadan sonra təkrar istifadə olunmuş miqdar (ton) | - İllik müvafiq resurs qənaəti (xam material/il, ton)<br>- İllik mütləq (ümumi) ayrılmış və ya toplanmış, emal edilmiş və təkrar istifadə olunan/yayınılan tullantı miqdarı |
| | **Tullantıların Toplanması, Emalı və İdarə Edilməsi**<br>Tullantıların çeşidl  m   d  r  c  sinin (sorting rate) artırılması üçün t  dbirl  r; Daha s  m  r  li tullantı toplama; Mövcud t  sisatlardakı t  dbirl  r; Tullantıları q  bul etm  k, ayırmaq v   ya idar   etm  k üçün yeni t  sisatların yaradılması; Biogaz istehsalı üçün şlam emalı t  sisatları; Mövcud zibillik sah  l  rind t  dbirl  r; Karbon yığımı v   saxlanması (CCS) | - Layihə təsviri (milli hədəflərə və ambisiyalara töhfəni izah edən)<br>- İnvestisiyadan əvvəl çeşidləmə dərəcəsi (sorting rate, tonla) və investisiyadan sonra gözlənilən çeşidləmə dərəcəsi (sorting rate, tonla)<br>- Əgər varsa: İnvestisiyadan əvvəl nəqliyyat tələbi və investisiyadan sonra gözlənilən nəqliyyat tələbi<br>- Gözlənilən təsir (keyfiyyətcə və ya kəmiyyətcə)<br>- İnvestisiyadan əvvəl təkrar istifadə üçün hazırlanan tullantı miqdarı (ton) və investisiyadan sonra (ton)<br>- İnvestisiyadan əvvəl əhəmiyyətli bərpa dərəcəsi (ton) və investisiyadan sonra gözlənilən bərpa dərəcəsinin (ton) müqaisəsi<br>- Azaldılmış dizel miqdarı (litr/il)<br>- Layihə təsviri (layihənin iqlim və ekoloji baxışdan ambisiyalarını və biogazın və üzvi qalıqların istifadəsi planını izah edən)<br>- Metan qaçaqlarının monitorinqi və fövqəladə hallarda tədbirlər planı<br>- İllik istehsal olunan şlam (sludge) miqdarı (ton/il)<br>- Əgər varsa: Planlaşdırma sahəsi üçün risk və həssaslıq qiymətləndirilməsi<br>- Gözlənilən emissiya azaldılması və ya enerji istehsalı ilə bağlı layihə təsviri | |
| | **Başqa** | - Layihə təsviri | |
| **Ekoloji dayanıqlı təbii resursların və torpaq istifadəsinin idarə edilməsi** | **Çirklənməyə qarşı tədbirlər**<br>Torpaqda çirkl  nm  y   qarşı t  dbirl  r; Su çirkl  nm  sin   qarşı t  dbirl  r (limanlar, d  nizl  r, çaylar, su axınları v   s.) | - Layihə Təsviri<br>- Tədbirdən əvvəlki və sonrakı vəziyyətin təsnifatı | - Su istehlakının azalması miqdarı və ya faizi<br>- İstehsal səmərəliliyində artım<br>- Qoruunan kənd təsərrüfatı sahəsinin miqdarı (ha)<br>- Kənd təsərrüfatında külək səddləri sahəsinin miqdarı (ha)<br>- Əhali üzrə bir şəxsə düşən yaşıl sahənin artımı<br>- Təbii landşaft sahələrinin (o cümlədən meşə) baxımı/təhlükəsizliyi/artırılması ($km^2$ və artım faizi)<br>- Sertifikatlaşdırılmış torpaq idarəetməsi altında olan sahənin artımı ($km^2$ və ya $m^2$ və artım faizi) (qorunan ərazilərin yastı zonalarında)<br>- Bərpa edilən yerli növlərin, flora və faunanın (ağaclar, kol və otlar...) Ümumi sayı<br>- İllik istixana qazı emissiyalarının azalması miqdarı(tco2) |
| | **Sahə inkişafı və torpaq istifadəsi**<br>İqlim və ətraf mühit dostu  (climate and environmentally friendly) olan sahələrin inkişafı; Təbii sahələrin bərpası | - Layihə təsviri<br>- İnkişaf etdiriləcək sahə<br>- Əgər varsa: Rəqabətli tender sənədləri<br>- Əgər varsa: Təsir qiymətləndirilməsi<br>- Əgər varsa: Planlaşdırma sahəsi üçün risk və həssaslıq qiymətləndirilməsi | |
| | **Başqa** | - Layihə təsviri | |
| **İqlim dəyişikliklərinə uyğunlaşma** | **Səthi axınların idarə edilməsi** | - Layihə təsviri | - Anbarlarda / su yollarında / təbii mühitlərdə və s. azaldılmış/qarşısı alınmış su itkisi ($m^3$)<br>- Sel nəticəsində itirilmiş iş günlərinin sayında azalma<br>- Sel zərəri xərclərində azalma<br>- Daha quraqlığa dözümlü bitkilərlə kənd təsərrüfatı sahələrinin artımı (hektar)<br>- Su basması və/və ya sahil eroziyası nəticəsində torpaq itkisində azalma ($km^2$)<br>- Təbii meşələrə təzyiqin azalması, karbon saxlama qabiliyyətinin artması |
| | **İqlim dəyişikliklərinə uyğunlaşma tədbirlər**<br>Təbiət hadisələrindən qorunma; İnfrastrukturun köçürülməsi | - Layihənin hədəflədiyi iqlim dəyişiklikləri və bunun necə həll ediləcəyi barədə sənəd<br>- Qorunacaq sahə ($m^2$) | |
| | **Fövqəladə Hallara Hazırlıq**<br>Xəbərdarlıq sistemləri və fövqəladə hallara hazırlıq | - Layihə təsviri | |
| | **Başqa** | - Layihə təsviri | |

## 3.2 Sosial Etiket Prinsipləri

Bu Çərçivə altında uyğun sosial fəaliyyətlər, fərdlərə aydın şəkildə fayda gətirən, inklüziv icmaları təşviq edən və cəmiyyətin dayanıqlılığını artıran və KMA-nın Sosial Kredit Prinsiplərində və BKMA-nın Sosial İstiqraz Prinsiplərində təsvir olunan hədəf qruplarını prioritet edən fəaliyyətlərdir. Bir layihə aşağıdakılardan ən azı birini təmin edən və ya dəstəkləyən iqtisadi fəaliyyətləri əhatə edirsə, o zaman Sosial Etiket üçün uyğun hesab olunur:

- Əsas yaşayış şəraitinin təmin edilməsi
- Əsas insan hüquqlarının qorunması və gücləndirilməsi
- Əsas sosial xidmətlərə çıxış
- İqtisadi resursların və gəlirlərin bərabər bölüşdürülməsi
- Bankçılıq, maliyyə xidmətləri və digər iqtisadi resurslara bərabər çıxış
- Sosial-iqtisadi böhranlardan irəliləyən işsizliklərin qarşısının alınması

**Sosial Etiket layihələri** aşağıdakı kateqoriyalarla məhdudlaşmamaqla, aşağıdakıları əhatə edir:

*Cədvəl 2*

| | Sosial Etiketli Lahiyələr (Xüsusi iqtisadi fəaliyyət) | | Dayanıqlılıqla Bağlı |
|---|---|---|---|
| **Lahiyənin Kateqoriyası** | **Uyğun fəaliyyət** | **Təklif olunan sənədlər** | **Təklif olunan ƏFG-lər** |
| Əsas xidmətlərə çıxış | İctimai olaraq mövcud olan əsas xidmətlərin tikintisi, inkişafı, fəaliyyəti, alınması, təmiri və saxlanması, aşağıdakılara daxil olmaqla:<br>- Təhsil<br>- Səhiyyə<br>- Qayğı mərkəzləri<br>- Fəlakət yardımı xidmətləri<br>- İctimai məkanların bərpası | - Layihə Təsviri<br>- Layihə başlamazdan əvvəlki və sonrakı vəziyyətin təsnifatı<br>- Layihənin Əhatə Dairəsinin Təsviri (əgər tətbiq edilirsə: kvadratmetr)<br>- Rəqabətli Tenderlərə Aid Sənədləşmə (əgər varsa)<br>- Təsir Qiymətləndirilməsi (əgər varsa)<br>- Risk və Həssaslıq Qiymətləndirilməsi (əgər varsa) | - Faydalanan insan sayı<br>- Tikilən xəstəxana/səhiyyə obyektlərinin sayı<br>- Təcili tibbi ehtiyaclar üçün sərf olunan məbləğ<br>- Peşə təlimindən faydalanan və/və ya təhsilə daha yaxşı çıxışı olan insanların sayı<br>- Qeydiyyatdan keçən/təhsil alan şagirdlərin sayı<br>- Tikilən/yaxşılaşdırılan sinif otaqları/təhsil dəstəyi obyektlərinin sayı |
| Əlverişli mənzil | Milli qanunvericilik və ya beynəlxalq praktika əsasında müəyyən edilmiş sərfəli mənzil meyarlarına cavab verən yaşayış məkanlarının – mövcud və ya yeni binaların - tikintisi, inkişafı, alınması, təmiri və saxlanması | - Layihə Təsviri<br>- Layihə başlamazdan əvvəlki və sonrakı vəziyyətin təsnifatı<br>- Mənzil vahidlərinin təsviri (əgər uyğundursa: vahidlərin sayı)<br>- Rəqabətli Tenderlərə Aid Sənədləşmə (əgər varsa)<br>- Təsir Qiymətləndirilməsi (əgər varsa)<br>- Risk və Həssaslıq Qiymətləndirilməsi (əgər varsa) | - Tikilmiş Mənzil Bölmələrinin Sayı<br>- Faydalanan Şəxslərin / Ailələrin Sayı |
| Əlverişli əsas infrastruktur | Əsas xidmətlərdən, məsələn, təmiz içməli su, sanitariya, kanalizasiya sistemləri, elektrik ötürülməsi və sair xidmətlərdən məhrum olmuş və ya uzaq bölgələrdəki icmalar üçün vacib infrastrukturların tikintisi, inkişafı, fəaliyyəti, alınması, təmiri və saxlanması | - Layihə Təsviri<br>- Layihə başlamazdan əvvəlki və sonrakı vəziyyətin təsnifatı<br>- İnkişaf etdiriləcək infrastrukturun təsviri (əgər uyğundursa: tutum, əhatə sahəsi)<br>- Rəqabətli Tenderlərə Aid Sənədləşmə (əgər varsa)<br>- Təsir Qiymətləndirilməsi (əgər varsa)<br>- Risk və Həssaslıq Qiymətləndirilməsi (əgər varsa) | - Təmiz su və sanitariya şəraiti təmin edilən insanların sayı<br>- Tikilmiş su infrastrukturu layihələrinin sayı<br>- Təmiz və sərfəli enerji ilə təmin olunan insan sayı |

| | | | |
|---|---|---|---|
| **Sosial-iqtisadi İnkişaf & Gücləndirmə və Müxtəliflik & Bərabərlik** | Azlıqların sosial-iqtisadi inkişafını və gücləndirilməsini təşviq edən təşkilatlara dəstək, aşağıdakıları əhatə edir:<br>- Azlıqların Maliyyə təhsilinə və xidmətlərinə çıxışı artırmaq, mənzil inkişafını dəstəkləmək.<br>- Azlıqlar üçün təhsil, bacarıq inkişafı, iş yerlərinin təminatı və iqtisadi gücləndirməni asanlaşdırmaq.<br>- İqtisadi cəhətdən zəif bölgələrdəki müəssisələrə kömək etmək.<br>- Qadınların sosial-iqtisadi vəziyyətini yaxşılaşdıran layihələr.<br>- Qaçqınlar üçün təhsilin yaxşılaşdırılmasına yönəlmiş layihələr. | - Layihə təsviri<br>- Layihə başlamadan əvvəl və sonra vəziyyətin təsnifatı<br>- Görüləcək xüsusi fəaliyyətlər və ya təşəbbüslərin təsviri<br>- Rəqabətli tenderlərə aid sənədləşmə (əgər varsa)<br>- Təsir qiymətləndirməsi (əgər varsa)<br>- Layihə bölgəsi üçün risk və həssaslıq qiymətləndirməsi (əgər varsa) | - Faydalanan qadınların sayı<br>- Faydalanan uşaqların və gənclərin sayı<br>- Faydalanan yaşlıların sayı<br>- Faydalanan əlil şəxslərin sayı<br>- Faydalanan müvəqqəti qorunma altında olan qaçqınların sayı |
| **İşsizliklərin qarşısının alınması** | Aşağıdakı fəaliyyət növlərinin maliyyələşdirilməsi, inkişaf etdirilməsi və ya dəstəklənməsi:<br>İş təlimi və işə qəbul proqramları<br>- İş yerlərinin yaranmasında böyük rol oynayan kiçik və orta sahibkarlıq müəssisələrinə (KOS) dəstək<br>- İş yaranması üçün sahibkarlıq dəstəyi<br>- Yerli iqtisadiyyatı stimullaşdıran icma inkişafı layihələri<br>- İqtisadi sabitlik və biznes dəstəyi üçün böhran dövrünə dair cavab təşəbbüsləri | - Əhatəli layihə təklifi (məqsədlər və gözlənilən nəticələr daxil olmaqla)<br>- Müvafiq təşkilatlarla və ya qurumlarla əməkdaşlıq razılaşmaları<br>- Oxşar təşəbbüslərlə bağlı keçmiş performans və ya uğur hekayələrinin sənədləşməsi<br>- Təsir qiymətləndirməsi və qiymətləndirmə çərçivəsi<br>- Potensial çətinlikləri nəzərə alan risk idarəetmə planı | - Yaradılan və ya saxlanılan işlərin sayı<br>- Faydalanan insanların sayı |
| **Qida təhlükəsizliyi və Dayanıqlı qida sistemləri** | Bu sahədə dayanıqlı fəaliyyətlər aşağıdakılardır:<br>Dayanıqlı kənd təsərrüfatı təcrübələrinin dəstəklənməsi<br>- Effektiv qida emalı və paylanmasına investisiya<br>- Kiçik fermerlər üçün bazara çıxışın yaxşılaşdırılması<br>- Qida təminatı proqramlarının gücləndirilməsi<br>- İqlim dəyişikliklərinin qida istehsalına təsirlərinə qarşı dayanıqlılığın artırılması | - Lahiyənin məqsəd və fəaliyyətinin məmununu özündə cəmləyən ətraflı təsviri<br>- Hazırkı vəziyyətin və layihənin icrasından sonra gözlənilən nəticələrin sənədləşməsi<br>- Fermerlər assosiasiyaları, qeyri-hökumət təşkilatları və ya dövlət agentlikləri kimi müvafiq tərəfdaşlarla əməkdaşlığı sübut edən sənədlər<br>- Təsir qiymətləndirilməsi, o cümlədən qida təhlükəsizliyi göstəricilərində gözlənilən artım<br>- Risk qiymətləndirilməsi və yüngülləşdirmə strategiyaları (xüsusilə iqlim dəyişiklikləri təsirləri ilə bağlı) | - Faydalanan insanların sayı<br>- Faydalanan kənd təsərrüfatı işçilərinin sayı |

# IV Hissə. Dayanıqlı Maliyyələşmənin qiymətləndirilməsi prosesi

Bu Çərçivə altında, dayanıqlı maliyyələşdirmə qərarları ilə əlaqəli risklər diqqətlə qiymətləndirilir və strukturlaşdırılmış, risk əsaslı yoxlama prosesi vasitəsilə idarə olunur.

### 4.1 Ekoloji & Sosial aspektlərin qiymətləndirilməsi

Əsas məqsəd, müştərinin fəaliyyəti ilə əlaqəli potensial mənfi ekoloji və sosial riskləri müəyyən etməkdir. Bu, müştərinin qarşılaşa biləcəyi əsas ekoloji və sosial risklərə dair **ilkin yoxlamaları**, o cümlədən son illərdə mənfi ətraf mühit və sosial təsirlərlə əlaqəli sənədləri əhatə edir.

ESDD proseduru nəticəsində çıxan qərarlar:

**Yığılan bal ≤ 30** — Namizəd dayanıqlı maliyyə üçün uyğun deyil və buna görə də rədd edilir

**Yığılan bal > 30** — Dayanıqlı Maliyyə Komissiyası namizədin uyğunluğunu qərarlaşdırır

# V Hissə. Dayanıqlı kredit mexanizmi

### 5.1 Dayanıqlılıq hədəfinin və idarəetmə metodunun sənədləşdirilməsi

Layihələr müəyyən edildikdən və seçildikdən sonra, növbəti addım spesifik hədəflərin sənədləşdirilməsini əhatə edir. Yaşıl və ya sosial etiketli layihələr müvafiq prinsiplərə uyğun olaraq keyfiyyətcə və ya miqdarca dayanıqlı hədəflərini açıq şəkildə müəyyən etməlidir. Dayanıqlılıqla bağlı layihələrdə isə hədəflər, keyfiyyətcə və kəmiyyətcə yaxşı təyin edilmiş dayanıqlılıqla əlaqəli kovenantlarla (ƏFG-larla) bağlıdır.

### 5.2 Dayanıqlı kreditin verilməsi

Son mərhələ dayanıqlı kreditlərin verilməsidir.

### 5.2.1 Daxili resurslar hesabına maliyyələşdirilmiş dayanıqlı kreditlər üçün şərtlər və qaydalar

Dayanıqlı layihələr üçün nəzərdə tutulan kreditin şərtləri (faiz dərəcəsi, güzəşt müddəti, kredit müddəti və s.) Bankın İdarə Heyəti tərəfindən təsdiqlənmiş qaydalar əsasında müvafiq daxili kredit komitələrinin rəyi əsasında müəyyən edilir və müştərinin təqdim etdiyi məlumatlar və layihəyə əsaslanır.

Dayanıqlı layihələr üzrə hər hansı güzəştlər, endirimlər və imtiyazlar, **Dayanıqlı Maliyyə Komissiyası** tərəfindən təklif ediləcəkdir.

### 5.2.2 Xarici resurslar hesabına maliyyələşdirilmiş dayanıqlı kreditlər & qrantlar üçün şərtlər və qaydalar

Xarici dayanıqlılıq fondu potensial faiz dərəcəsi güzəştləri və müddət qaydalarını əhatə edə bilər ki, bunlar Dayanıqlı Maliyyə Komissiyası tərəfindən layihələrin müəyyən edilmiş tələbləri yerinə yetirməsi əsasında nəzərə alınacaqdır.

Təkliflərin nəticələri layihə sahibinə **e-poçt vasitəsilə** və ya birbaşa **MM** tərəfindən kommunikasiyada təqdim ediləcəkdir. Əgər bir layihəyə imtina verilərsə, qərar səbəbləri ilə birlikdə müvafiq qaydada müştəriyə bildiriləcəkdir.

Şəffaflıq və cavabdehlik prinsiplərinə riayət edərək, Bank bu Çərçivə altında maliyyələşdirilən **bütün layihələr** barədə ümumi məlumatları (məsələn, daxili/kənar fond tərəfindən maliyyələşdirilməsi, layihənin təsviri, maliyyə vəsaitinin həcmi, faizi və müddəti) **ictimaiyyətə açıqlayacaqdır.** Layihə məqsədləri, maliyyə məbləğləri, müqavilə şərtləri və gözlənilən ekoloji və sosial təsirlər daxil olmaqla detallara Bankın **rəsmi veb saytında** baxmaq mümkün olacaq.

# VI Hissə. Dayanıqlı istiqraz mexanizmi

Bank davamlı maliyyə strategiyasının alətlərindən biri kimi davamlı istiqrazlardan istifadə edir. Bu istiqrazlar yaşıl istiqrazlar, sosial istiqrazlar və dayanıqlılıqla bağlı istiqrazlar da daxil olmaqla bir neçə kateqoriyanı əhatə edir.

Ətraflı məlumat üçün info@abb-bank.az ünvanına müraciət

# VII Hissə. Lahiyələrin monitorinqi

Layihələrin izlənməsində Risk İdarəetmə Departamentinin İzləmə komandası tərəfindən aşağıdakı müxtəlif üsullarla üsullardan təşkil edilə bilər, Dövri Hesabatlıq, yerində baxışlar və yoxlamalar, 3-cü tərəf təsdiqi.

### 7.1 Müştəri tərəfindən Dövri Hesabatlılıq.

Dövri hesabatlar şəffaflığın qorunmasını təmin etmək məqsədilə maliyyələşdirilən müəssisə tərəfindən Banka müntəzəm və sistematik şəkildə təqdim olunan hesabatları əhatə edir.
**Tezlik:** Dövri hesabatlar 3-6 aylıq aralıqlarla təqdim edilməlidir.
**Məzmun:** Hesabatlar bunlarla məhdudlaşmamaqla aşağıdakıları əhatə edə bilər:

- Layihələrin irəliləyişinə dair yeniliklər
- Ətraf mühit və sosial təsirə aid ƏFG-lər.
- Dayanıqlılıq nəticələri ilə bağlı keyfiyyət və kəmiyyət məlumatları
- İlkin hədəflərdə dəyişikliklər və ya problemlər (əgər varsa) və bunları həll etmək üçün atılan addımlar.

### 7.2 Yerində baxışlar və yoxlamalar

Yerində baxışlar və yoxlamalar Bankın nümayəndələri tərəfindən layihə yerlərinin fiziki təhlilini əhatə edir. Bu yanaşma layihənin irəliləyişini və dayanıqlılıq hədəflərinə uyğunluğunu birbaşa müşahidə etmək imkanı verir.

**Tezlik:**
**Növbəli Yerində Baxışlar və Yoxlamalar:** Müntəzəm yerində baxışlar və yoxlamalar yarım ildən bir keçirilə bilər.
**Növbədənkənar Yerində Baxışlar və Yoxlamalar:** Qeyri-müntəzəm yerində baxışlar və yoxlamalar aşağıdakı şərtlərdən ən azı biri yerinə yetirildikdə başlana bilər:

- Müştərinin dövri hesabatları ilə bağlı problemlərlə yarandıqda, məsələn, gecikmələr və ya hesabatların təqdim edilməməsi halı baş verdikdə;
- Dayanıqlılıq prisinsplərinə uyğunluq məqsədləri ilə bağlı hər hansı bir digər növbədən kənar baxışlar və yoxlamalar vasitəsilə aydınlaşdırılması zəruri hesab edilən məsələ ortaya çıxdıqda.

**Məzmun:** Yerində baxışlar və yoxlamalar aşağıdakı məsələlərə fokuslana bilər:
- Layihənin həyata keçirilməsi və irəliləyişinin fiziki təsdiqlənməsi;
- Yerlərdə ətraf mühit və sosial şərtlərin qiymətləndirilməsi;
- Layihə rəhbərləri, yerli icmalar və digər maraqlı tərəflərlə müzakirələr.

**Hesabatlılıq:** Yerində baxışlar və yoxlamalar zamanı əldə edilən nəticələr aşağıdakıları qeyd etməklə ətraflı şəkildə yoxlama hesabatlarında sənədləşdirilməlidir:
- Dayanıqlılıq hədəfləri və meyarlarına uyğunluq;
- Qeydə alınan hər hansı uyğunsuzluqlar və problemlər;
- Təkmilləşdirmə və ya düzəlişlər üçün tövsiyələr.

### 7.3 3-cü tərəf hesabatı

Üçüncü tərəf təsdiqi, layihələrin müəyyən edilmiş dayanıqlılıq meyarlarına və hədəflərinə uyğunluğunu təsdiqləmək üçün müstəqil tərəfin rəyinin və ya sertigfikatının alınması prosesini əhatə edir. Bu proses etibarlılığı artıracaq və əlavə və bir təminat qatını təmin edəcək.

**Tezlik:** 3-cü tərəf təsdiqi tələb olunduğu halda ən azından ildə bir dəfə olmaqla həyata keçirilir.

**Təsdiq Təşkilatları:** Hesabatlar tanınmış üçüncü tərəf təşkilatları tərəfindən təqdim oluna bilər. Bu təşkilatlar bunlarla məhdudlaşmamaqla aşağıdakıları əhatə edə bilər:
- Reytinq agentlikləri
- Konsaltinq şirkətləri
- Sertifikatlaşdırma orqanları

**Məzmun:** Üçüncü tərəf bunlarla məhdudlaşmamaqla aşağıdakıları yoxlaya bilər:
- Vəsaitlərin düzgün istifadəsi;
- Layihələrin çərçivədə müəyyən edilmiş dayanıqlılıq meyarları ilə uyğunluğu;
- Qeyd olunan ekoloji və sosial məqsədlərin nail olunması;
- Beynəlxalq standartlara və prinsiplərə riayət.

### 7.4 Monitorinq prosesi

Ümumi monitorinq prosesi daxili risklərin idarə edilməsi siyasətlərinə və digər biznes kreditlərinə tətbiq edilən müəyyən edilmiş prosedurlara uyğun olacaq, lakin ESİ komponentlərini əhatə edəcəkdir.

#### 7.4.1 Dayanıqlı kreditlərin təyinatı üzrə istifadəsinin monitorinqi

- Bütün dayanıqlı kreditlərin monitorinqinin keçirilmə tezliyi digər biznes kreditlərinə tətbiq olunan daxili risk idarəetmə siyasətlərinə və təsdiqlənmiş prosedurlara uyğun olaraq həyata keçiriləcəkdir.
- Departament, vəsaitlərin nəzərdə tutulduğu kimi istifadə edildiyini təsdiqləmək üçün borcalandan 3-cü hissədə göstərilən Cədvəl 1.-in və Cədvəl 2. – də **“Təklif olunan Sənədləşmə”** bölməsi altındakı sənədləri tələb edə bilər.

### 7.4.2 Dayanıqlı kreditlərin kompleks monitorinqi

Müəyyən ESİ risk göstəriciləri və faktorlarının Erkən Xəbərdarlıq Sisteminə (EXS) daxil edilə bilər. Risklərin idarə edilməsi departamenti bu göstəricilərin və faktorların daxil edilməsinə cavabdehdir və bu göstəricilərdə olunacaq dəyişikliklər və əlavələr onların sənədləşdirməsində əks olunacaqdır.

### 7.4.3 Dayanıqlı kreditlərin növbədənkənar monitorinqi

Növbədənkənar monitorinq aşağıdakı şərtlərdən ən azı biri yerinə yetirildikdə başlana bilər:

- Borcalanın Bankın vəsaitlərini dayanıqlı fəaliyyətlərdən fərqli məqsədlər üçün istifadə etdiyi şübhəsi yaranarsa.
- Borcalanın dayanıqlı fəaliyyətləri ilə bağlı məlumatları hər hansı səbəbdən gizlətdiyinə dair sübutlar aşkarlanarsa.
- Borcalanın biznes sektorunda yüksək ESİ riskləri ilə xarakterizə olunan bir dəyişiklik aşkarlanarsa.
- Borcalanın dayanıqlı fəaliyyətləri ilə bağlı kənar mənbələrdən mənfi məlumat alınarsa.
- Borcalanın müvafiq maliyyə göstəricilərində və ESİ reytinqində pisləşmə müşahidə edilərsə.

### 7.4.4 Girov qismində çıxış edən aktivlərin monitorinqi:

Monitorinq prosesi digər biznes kreditlərinə tətbiq olunan daxili risk idarəetmə siyasətlərinə və təsdiqlənmiş prosedurlara uyğun olacaqdır.

# VIII Hissə. Hesabatlıq

Bu Çərçivə altında dayanıqlı maliyyələşdirmə kimi tanınan hər bir əməliyyatı öz mülahizəmiz və qiymətləndirməmiz əsasında qitmətləndirəciyik. Dayanıqlı maliyyə təşəbbüslərimizi inkişaf etdirmək üçün etdiyimiz səylər və yeniliklər rəsmi saytımızda illik dərc edilən **Dayanıqlılıq Hesabatımızda** əks olunacaq.

## 8.1 Paylaşdırılma üzrə Hesabatlılıq

İmkan daxilində aşağıdakı məlumatları təqdim edəcəyik:
- Ödənilməmiş Dayanıqlı Maliyyə alətlərinin ümumi məbləği
- Təsdiqlənmiş Yaşıl və/və ya Sosial layihələrə ayrılmış ümumi net məbləğ
- Paylanılmamış gəlirlərin qalıq məbləği
- İl ərzində həyata keçirilmiş maliyyələşdirmənin və ya Yenidən Maliyyələşdiriмənin məbləği və ya faizi
- Təsdiqlənmiş Yaşıl və Sosial kateqoriyalara ayrılmış məbləğin təsnifatı

## 8.2 Təsir etmə üzrə Hesabatlılıq

**Müvafiq Yaşıl və Sosial layihələrin** icrası zamanı gözlənilən ekoloji və sosial təsirləri ətraflı şəkildə Təsir hesabatlığı adı altında təqdim etməyi düşünürük. Mümkün və əlçatan olduqda, Təsir hesabatlığı uyğun Yaşıl və Sosial kateqoriyaların ekoloji və sosial təsirləri ilə bağlı göstəriciləri əhatə edəcək; bu göstəricilərlə tanış olmaq üçün Cədvəl 1 və Cədvəl 2-də yerləşdirilmiş "Tövsiyə olunan ƏFG-lər" bölməsinə müraciət edə bilərsiniz.